Məti OSMANOĞLU

# NƏSİLLƏRİN GÖRÜŞ YERİNDƏN REPORTAJ

*("Ulduz" jurnalının sentyabr sayı haqda qeydlər)*



"Ulduz" jurnalının sentyabr buraxılışında nəşr edilmiş yazılar ədəbiyyatımızın bir neçə nəslinin "görüş yeri" kimi maraq doğurur. Fərqli təmayülləri bir araya gətirən jurnalda eksperimentə meyil edən, ədəbiyyata yeni mövzular gətirməyə, təzə bədii söz deməyə, gözlənilməz tərz nümayiş etdirməyə çalışan gənclərlə, eləcə də ilk yazılarını təqdim edən debütantlarla yanaşı, mərhum Oqtay Rzanın təmsil etdiyi 60-cı illər nəslinin, Kəmaləddin Qədimin və Tahir Talıblının təmsil etdikləri 80-ci illər nəslinin də səsini, sözünü eşitmək mümkündür. Bu keyfiyyətinə görə "Ulduz"un sentyabr buraxılışı ədəbiyyatımızın zamanları və nəsilləri arasında müqayisə aparmaq üçün müəyyən imkan yaradır.

Jurnal Təranə Turan Rəhimlinin avqust buraxılışında gedən yazılar barədə ekspert sözü ilə açılır. Təranə xanımın məqaləsi müəllifin ona verilmiş söz tribunasına son dərəcə böyük hörmət və öz işinə ciddi məsuliyyətlə yanaşması ilə fərqlənir. Haqqında fikir yürüdülən hər bir müəllifə münasibət səmimiliyi ilə seçilən bu yazı güzəştsiz tənqidçi ekspertizası olmaqdan daha çox, ədəbiyyatın dəyərlərini və təəssübünü yüksək tutan, qiymətləndirmədə obyektivliyə əsas şərt kimi əməl edən qayğıkeş müəllim sözüdür.

Açıq demək istəyirəm ki, jurnalda ən çox xoşuma gələn mətn Taleh Mansurun "Yazı masası" rubrikasında nəşr etdirdiyi məqalədir ("məqalə" sözünün yazının janrını dəqiq müəyyənləşdirdiynə əmin deyiləm). "85 yaşlı Oqtay Rza: "İlk yazı masam məndən yaşlı idi..." sərlövhəsi məqalənin mövzusu barədə kifayət qədər aydın təsəvvür yaradır. Bənzərsiz insani keyfiyyətləri, xüsusilə ömrünün son illərində ədəbi həyatda – müxtəlif mövzulu tədbirlərdə, yubiley və təqdimat məclislərində özünəməxsus fəallığı ilə seçilən Oqtay Rzanın son söhbəti əsasında qurulmuş bu yazı janrın qəliblərinə, hətta publisistikanın çərçivələrinə sığmır. Yazı Oqtay Rza haqqında maraqlı hekayə kimi birnəfəsə oxunur və şairin indi həyatda olmaması yazının hüznünü bir qədər də artırır, mətnə əlavə minor çalarlar gətirir. İndi bizim publisistikamızda müsahibə janrı xeyli bəsitləşdirilib. Əksər hallarda ayaqüstü söhbətin diktofona yazılıb olduğu kimi verilməsi şifahi radio və ya televiziya reportajları ilə yazılı mətn arasında fərqi aradan götürür. Mənə elə gəlir ki, yazılı müsahibə onu təqdim edən qələm adamından sözün həqiqi mənasında yazıçı yanaşması tələb edir. Bu baxımdan, Taleh Mansur bizə, sadəcə, Oqtay Rzanın söhbətini çatdır-

mır, həmin söhbət əsasında şairin əyani portretini, xarakterinin incə cizgilərini canlandırır. Burada Talehin nasir kimi istedadının və təcrübəsinin rolu da az əhəmiyyət daşımır. Yazı ciddi süjet və kompozisiya şərtlərinə tabedir, oxucu ilə mətn arasındakı ünsiyyətin dramaturji gərginliyi axıra qədər saxlanılır. İki adamın söhbəti üzərində qurulmuş mətn üçüncü tərəfi – oxucunu söhbətə cəlb edib, axıra qədər bu söhbətdən ayrılmağa qoymur.

Yazının daha bir maraqlı cəhəti də söhbətin içində Oqtay Rzanın şeirinin verilməsidir. Müsahibə götürənlə müsahibə verənin söhbətinin incə zarafat və yumor üstündə qurulub davam etdirildiyi yazıda tərəflər bir-birinə təklif etdikləri "oyun" şərtlərinə sona qədər əməl edirlər. Sonda şeirin verilməsi söhbətdə maraqlı bir dönüm yaradır – Oqtay Rzanın şair kimliyi üzə çıxır. Müsahibənin yumoristik əhvalı ilə şeirin lirik havası bir-birini üzvi şəkildə tamamlayır.

Oqtay Rzanın məqalənin mətnində verilmiş şeirinin "Ulduz"un bu buraxılışının ən yaxşı poeziya nümunəsi kimi yadımda qalmağını da müəllifin vəfatının təsiri hesab etmirəm. Bədii yaradıcılıq üçün səmimiyyət dediyimiz başlıca şərt burada özünü qabarıq göstərir.

Jurnalın sentyabr buraxılışında Kəmaləddin Qədimin şeirlərini "nəsil təəssübkeşliyi" ilə oxudum. Mənim kimi, Kəmaləddin müəllim də ilk yazılarını 1980-ci illərdə nəşr etdirib və o vaxtdan ədəbi ictimaiyyətin təsəvvüründə öz yaradıcılığı haqqında müəyyən iz qoyub. Ədəbi prosesdə öz yeri olan şairin təzə şeirləri də həmin ab-hava içində yaranıb.

Kəmaləddin müəllimin jurnalda təqdim edilmiş ilk şeiri "İçimdə bir uşaq yaşayır mənim" adlanır. İnsanın içində yaşayan uşağın axtarılması bizim mənsub olduğumuz ədəbi nəslin estetik müəyyənliyi baxımından xüsusi əhəmiyyət daşıyan səciyyəvi motivdir. O illərin poetik ab-havasını yaradan nəslin nümayəndələrinin əksəriyyəti dünyaya, dünyanın qəribəliklərinə heyrətli bir uşaq gözü ilə baxır, gördüklərini, göstərmək istədiklərini reallıqda olduğundan daha parlaq, daha rəngli, daha dolu təqdim etməyə üstünlük verirdilər. Nəsrə bir qədər əvvəl nüfuz eləmiş işıqlı uşaq baxışlarının cazibəsi şeirdə 70-ci illərin sonunda nəzərə çarpmağa başlamışdı. Hələ dünyanın günahlarına bulanmamış uşaq heyrəti, məsum uşaq səmimiyyəti 70-80-ci illər şeirinin məzmunu ilə yanaşı, poetikasına, sözün bədii düzümünə də ciddi sirayət edir və təsir göstərirdi.


BU SAYIMIZDA

3 Təranə Turan
Ədəbiyyatın ulduz yolunda addımlayanlar

9 Nargis
özüylə söhbəti və hekayəsi

16 Aysel Nəsirzadə
Get yavaş-yavaş

19 Mübariz Cəfərli
Tələdə

24 qısa fikirlər xəzinəsi

29 85 yaşlı Oqtay Rza: "İlk yazı masam məndən yaşlı idi..."
yazı masası

33 Allahşükür Ağa
Böyükdən uşağa

35 Çinarə Ömray
Dəli Rüqeyya

37 Nigar Ələnur
Borc ver, dostum!

38 Pərvin
Qələmlə, yaxud qələmsiz...

43 Seymur Su
Miraj

45 Tahir Talıblı
tribuna

48 Leyla Nazlı
debüt

51 Vüsal Yurdoğlu
Daha darıxmıram

53 Gülnarə Sadiq
Mavi kağız

56 Kəmaləddin Qədim
Şansını bir də sına

60 Anar Adil
Qundaqdakı qızıl diş

64 Aysel Ataş
Bir qadının ömrü

65 Yelda Özsunar
İflic

70 Ələmdar Cabbarlı
dərgidə kitab

**Təsisçilər:**
Azərbaycan Yazıçılar Birliyi və «Ulduz» jurnalının kollektivi

**Baş redaktor**
Qulu Ağsəs

**Redaksiya heyəti**
Təranə Vahid (Baş redaktor müavini)
Həyat Şəmi
Elçin Mirzəbəyli
Xəyal Rza
Səhər Əhməd
Xanəmir
Rəsmiyyə Sabir
Elxan Yurdoğlu
Nuranə Nur
Anar Amin
Elmar Vüqarlı
Ələmdar Cabbarlı
Qılman İman
Hafiz Hacxalıl
Nisəbəyim
Fərid Hüseyn
Məshəti Musa
Elşən Əzim
Nargis
Seyfəddin Altaylı (Türkiyə)
Xaqani Qayıblı (Estoniya)
Baloğlan Cəlil (Başqırdıstan)
Saodat Muxammadova (Özbəkistan)
Nilufər Şıxlı (Moskva)
Günay Səma Şirvan (Voronej)

**Bədii redaktor**
Ədalət Həsən

Ünvanı: AZ1000, Bakı, Xaqani küçəsi, 25
ulduz_dergisi@mail.ru
dursul@mail.ru
www.ayb.az
**Telefon: 498-72-43**
Çapa imzalanıb: 18.09.2019
«Ulduz» jurnalı redaksiyasında yığılıb səhifələnib.
«Təhsil Nəşriyyat-Poliqrafiya» MMC-də çap olunub.
Sifariş. №71, Tiraj: 300
Qiymıti: 2 man.
**1967-ci ildən çıxır**
**Şəhadətnamə № 238**
**Nömrənin eksperti:**
Məti Osmanoğlu

Kəmaləddin müəllimin jurnalın bu buraxılışında nəşr edilmiş şeirlərinin hər biri özünə aid mövzuya, əhval-ruhiyyəyə və bədii ifadə tərzinə köklənsə də, bu şeirlər dünyamızın indi daha çox möhtac olduğu uşaq heyrətinə sədaqətini itirməyib...

Mübariz Cəfərlinin "Tələdə" hekayəsinin mövzusu bu günümüzün eybəcərləşmiş reallığından götürülüb. Hekayənin poetik sistemi ənənəvidir və bunu mən çatışmazlıq kimi qələmə vermək fikrindən uzağam. Ancaq məni düşündürən sual bu mətnin bir oxucu kimi mənə hansı estetik enerjini ötürməsidir və düzünü deyim ki, sual mənim üçün açıq qaldı. Eyni sualı Anar Adilin "Qundaqdakı qızıl diş" hekayəsi də oyatdı.

Jurnalın "Dərgidə kitab" bölməsində Ələmdar Cabbarlının iki hekayəsi nəşr edilib: "Qol" və "Qızıl". Hər iki yazı ciddi nəsr nümunələri kimi diqqəti cəlb edir. Yazıların məzmunu ilə poetikası arasında ayrılmaz bütövlük var. Müəllifin təhkiyə qurmaq, mətn daxilində təhkiyəçi-oxucu ünsiyyəti yaratmaq bacarığı, təhkiyənin dönümlərini ustalıqla idarə etmək məharəti bu yazıların başlıca keyfiyyətləridir. Müəllif "Qol" hekayəsində hamımızın bu və digər şəkildə rastlaşdığımız, daim içində olduğumuz və vərdiş eləyib barışdığımız, bəzən də cəfəngiyat həddinə çatan bürokratiya mühitinin bədii hekayəsini yarada bilib. Bürokratiya adlandırdığımız ictimai xəstəliyin hökmran olduğu bir mühitdə insan hiss olunmadan həmin mühitin xırda bir "vintinə" çevrilib robotlaşır, şüur altında daim pusquda olan mərəzlər onu idarə edir. Belə bir boğanaq mühitdə sağlam hava yaratmaq üçün fərqli düşünən, qeyri-standart qərar verməyi bacaran insanlara ehtiyac yaranır. Bəlanın böyüyü isə budur ki, bürokratiya "sürüsü" fərqli düşüncəyə də öz meyarlarından yanaşır: bayaq adının yuxarıda birinci sıradan sonra ikinci sırada çəkilməsi üçün əldən-ayaqdan gedən "sürü", birinci şəxs öz imzasını aşağıda qoyandan sonra aşağıdan yuxarıya hesablanan ikincilik uğrunda "mübarizəyə" başlayır. Toplananların yeri dəyişir, cəm isə dəyişmir. Burada yazıçının bizə ötürdüyü mesaj çox dəqiqdir: cəmi dəyişmək ədəbiyyatın deyil, cəmiyyətin işidir. Ələmdar Cabbarlı isə ədəbiyyatın işini ləyaqətlə yerinə yetirə bilib.

"Qızıl" hekayəsi öz mövzusuna və poetik sisteminə görə "Qol"dan fərqlidir. Əsər hamımız üçün böyük ağrı olan və yarası içimizdə qövr edən Qarabağ mövzusundadır. Milli yaddaşımızdan, eləcə də ədəbiyyatımızdan itin sədaqət rəmzi olması haqqında kifayət qədər misallar gətirmək mümkündür. Bu qənaəti bir daha təsdiqləyən "Qızıl" hekayəsindən alınan sərt qənaət isə budur ki, biz insanlar da yurda və torpağa Qızıl adlı it qədər sədaqət göstərmiş, fədakarlıq etmiş olsaydıq, indi yaramız bu qədər dərinə işləməzdi...

Seymur Suyun orijinal fikir demək, yeni fikrin yeni obrazlarını tapmaq axtarışları maraqlıdır. Uşaq heyrətinin poeziyasını yaratmağa üstünlük verən Kəmaləddin Qədimdən fərqli olaraq, Seymur Su "sualı olmayan cavablar" axtarır. Oxucunun diqqətini zahirin oyatdığı heyrətdən batinin yaratdığı həssaslığa, şübhələrə, tərəddüdlərə yönəltməyə çalışır. Onun şeirlərində dişlənmiş almada söndürülən siqaret, ad günü tortuna düzülmüş şamlar, balerinaya bənzəyən külək və s. detallar parlaq poetik təəssürat oyadır.

Seymur Suya əsas iradım yazılarının dilindəki səliqəsizliklə, bəzi ifadələrin yerinə düşməməsi ilə bağlıdır. Müəllifin dilin qaydalarına meydan oxumaq cəhdi gənclik çılğınlığı təsiri bağışlayır və ümid edirəm ki, Seymur ədəbiyyatımıza gətirmək istədiyi yeni fikirlərin və obrazların daşıyıcısı olan bədii dilimizə qayğısını artıracaq.

Seymur Su ilə eyni nəslin nümayəndəsi, müasir ədəbi prosesdə öz yeri olan Allahşükür Ağanı ədəbi ictimaiyyət ciddi şair kimi qəbul edib, ən azından etməlidir. Allahşükürün yaradıcılığı düşüncənin miqyaslarının genişliyi, ənənə ilə müasir poetik təcrübə arasında üzvi bağlılıq ilə əlamətdardır. "Ulduz"un sentyabr sayında Allahşükür Ağanın yazıları "Böyükdən uşağa" rubrikasında təqdim olunub. Şairin bu rubrikada verilmiş şeirləri uşaq ədəbiyyatımızdakı boşluğun, təsadüfi imzaların yaratdığı xaosun, naşirlərin zövqündən, kommersiya tələblərindən irəli gələn ölçüsüzlüyün fonunda əhəmiyyətli təsir bağışlayır. Allahşükürün təqdim etdiyi yazılar bir daha təsdiq edir ki, uşaqlar üçün yazmaq